**Unlu qənnadı məmulatlarının istehsalı müəssisəsində keçirilmiş yoxlamaya dair məlumat**

**(19 oktyabr 2023)**

Nəzarət tədbirləri çərçivəsində Abşeron rayonu, Aşağı Güzdək qəsəbəsi, H.Məmmədov küçəsində fəaliyyət göstərən, fiziki şəxs Həsənov Elvin Əhməd oğluna məxsus unlu qənnadı məmulatlarının istehsalı müəssisəsində Agentlik əməkdaşları tərəfindən yoxlama keçirilib. Baxış zamanı qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların tələblərinin pozulduğu məlum olub. Belə ki, müəssisədə texnoloji prosesin ardıcıllığına əməl edilmədiyi, sanitar-gigiyenik vəziyyətin qənaətbəxş olmadığı, istehsal olunan məhsulların markalanmasının qanunvericiliyin tələblərinə cavab vermədiyi və digər nöqsanlar aşkarlanıb.

Faktla bağlı müəssisə rəhbəri barəsində inzibati tədbir görülüb, markalanması qanunvericiliyin tələblərinə cavab verməyən məhsulların satışı dayandırılıb və müəssisənin fəaliyyəti aşkar olunmuş nöqsanlar aradan qaldırılanadək məhdudlaşdırılıb.